**MEHRİBAN ƏSƏDULLASOY (QULİYEVA)***

# XIX ƏSRİN SONU VƏ XX ƏSRİN ƏVVƏLLƏRİ NAXÇIVANLI ƏDİBLƏRİN NƏSR DİLİNİN BƏDİİ ÖZÜNƏMƏXSUSLUĞU

**XÜLASƏ**

Funksional üslublar içərisində bədii üslub həm bədii-estetik keyfiyyətə malik olması ilə həm də yazıçının fərdi xüsusiyyətlərinin üzə çıxarılmasında oynadığı müstəsna rola görə fərqlənir. Naxçıvan ədəbi mühiti nümayəndələrinin bədii nəsrində qaldırılan məsələlər dövrün istimai-siyasi mənzərəsi ilə üst-üstə düşmüş, bu mənada ictimai-tarixi və siyasi şəraitin ədəbiyyata təsiri olduqca güclü olmuşdur. Azərbaycan dilinin ifadəlilik imkanlarını üzə çıxaran ədiblərin əsərlərində dilimizin gözəlliyini tamamlayan xalq dilindən götürülmüş sözlər və ifadələrlə zənginləşdirmiş, ədəbi dilə həssas qəlblə yanaşmış, ana dilimizin milli koloritini, sadəliyini və təbiiliyini qoruyub saxlamışdır.

XIX-XX əsrin əvvəlləri Naxçıvan ədəbi mühiti nümayəndələrinin yaradıcılığında klassik nəsrin müxtəlif nümunələrinə rast gəlmək mümkündür. Bu əsərlərin dilindəki sadəlik, təbiilik, el dilindən süzülüb gələn şirinlik, bir-birindən fərqli ədalı ibarələr, rəngarəng ifadələr, ritorik suallar, bədii təkrarlar onların əsərlərinin bənzərsizliyini və özünəməxsusluğunu parlaq şəkildə təcəssüm etdirmişdir.

**Açar sözlər:** *Naxçıvan, bədii dil, nəsr dili, dil və üslub, danışıq dili*

Naxçıvan ədəbi mühitinin Məhəmməd Tağı Sidqi (1854-1903), Eynəli bəy Sultanov (1866-1935), Cəlil Məmmədquluzadə (1869-1932), Məmməd Səid Ordubadi (1872-1950), Hüseyn Cavid (1882-1941), Əli Səbri (Qasımov) (1892-1983), Ələkbər Naxçıvanlı (Abbasov) (1893-1940) kimi görkəmli nümayəndələri bədii ədəbiyyatda realizmin mühüm janrlarından olan nəsrin çiçəklənməsində əllərindən gələni əsirgəməmişlər. Qeyd edilən ədiblər obrazların bədii təsvirində xüsusi ustalıq nümayiş etdirmişlər. Onların əsərlərində saysız toponimlərə rast gəlmək mümkündür.

H.Hüseynova "Bədii əsərlərdə onomastik vahidlərin rolu" kitabında bədii əsərlərdə yer alan toponimlərdən bəhs edərək yazır: "Bədii əsərlərdə işlənən toponimlər müxtəlif üslubi məqamlarda müxtəlif üslubi əhəmiyyət kəsb edir. Həmin dil vahidləri sənətkarın poetik qüdrətinin ifadəçisinə çevrilir" [Hüseynova: 2017, s.110].

Xalqın keçmiş tarixini, dilini, coğrafiyasını, adət-ənənəsini, məişətini özündə əks etdirən toponimlərin bədii əsərlərdə cəmlənməsi onların ətraflı tədqiqinə, öyrənilməsinə geniş yol açmışdır. Ədəbi mühit nümayəndələrinin nəsrində rast gəldiyimiz toponimlərin əksəriyyəti müəyyən mənada həmin dövrə aid ictimai-siyasi mühitin mənzərəsini də əks etdirir. *Zəngəzur* [Sultanov: 2016, s.75], *Şərur* [Sultanov: 2016, s.77]. *Zəngi* [Sultanov: 2016, s. 32], *Keçilli* [Sultanov: 2016, s.127], *Salvartı* [Səbri: 1978, s.34], *Çərçiboğan* [Məmmədquluzadə: 2004, s.72], *Naxçıvan* [Ordubadi: s.350], *Gərməçataq* [Ordubadi: 1964, s.255] kimi yer adları o yerlərdəki dədə-baba adları qoruyub saxlayan toponimlərdəndir. Ədəbi nümunələrdə milli mənsubiyyəti təsdiqləyən, tarixin şanlı səhifələrinə işıq tutan toponimlər içərisində çoxsaylı məhəllə adları da vardır: *Buxxana* [Məmmədquluzadə: 2004, s.101], *Çaylax* [Məmmədquluzadə: 2004, s.108], *Cəfərabad* [Məmmədquluzadə: 2004, s.255], *Şa-*

* Naxçıvan Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent.

*hab* [Məmmədquluzadə: 2004, s.6] və s. Cəlil Məmmədquluzadə məhəllə adlarına daha həssas yanaşmışdır: *Dindarlar və orucağızlar məhəlləsi kimi tanınan Şərq və inzibati idarələrdə çalışan oruc yeyənlər - Qərb məhəlləsi olaraq ikiyə ayırmışdır* [Məmmədquluzadə: 2004, s.352]. Bədii nümunələrdə uydurma toponimlərə də rast gəlinir*: Danabaş kəndi* [Məmmədquluzadə: 2004, s.41] *Pirsaqqız* [Məmmədquluzadə: 2004, s.281] və s. Cəlil Məmmədquluzadə əhvalatları yazıçı təhkiyəsi ilə nəql etməklə yanaşı, ətrafda baş verən hadisələri də adi danışıq dilində sadalama intonasiyasının və təqlidi sözlərin köməyi ilə canlı və təbii şəkildə təsvir edə bilmişdir*: Genə katlet bıçaqlarının taqqıltısı, adamların tappıltısı, atların kişnəməsi, cücə-toyuqların və qlavaların bağırtısı və tulaların hafıltısı qarışdı bir-birinə* [Məmmədquluzadə: 2004, s.175].

Həqiqət Zahidova "Azərbaycan etnoqrafiyası Cəfər Cabbarlı yaradıcılığında" kitabında maddi mədəniyyət nümunələrinin öyrənilməsinin zəruriliyi haqqında geniş şəkildə bəhs edərək yazır: "Hər bir dövrün maddi mədəniyyəti özünəməxsus elementləri ilə seçilmiş, xalqın təxəyyül və fəhm imkanlarından, empirik biliklərindən qaynaqlanmışdır. Bu nümunələr dövrə və şəraitə uyğunlaşaraq, həm də daim müəyyən keyfiyyət dəyişiklərinə uğramış, zənginləşərək yeni məzmun və çalarlar kəsb etmişdir [Zahidova: 2011, s.17]. Ədəbi mühit nümayəndələrinin yaradıcılığında istənilən sayda peşə-sənət və terminoloji leksikaya rast gəlmək olur. Eynəli bəy Sultanov qədimdə gön hazırlama, dəri aşılama emalatxanası olan dabbaqxanada fəhlə işləyən Məmmədin bədii təsvirini ustalıqla təqdim etmişdir: *Oğlan Məmməd adında bir dabbağxana əmələsi idi, ucaboy, döşügen, saçları qara, qırmızıyanaq və çatmaqaş bir igid idi, az-çox da dərsi var idi, oxumuşdu* [Sultanov: 2016, s.34].

Nəsr ustalarımız XX əsrin əvvəllərində xalqımızın sənətkarlıq nümunələrinə ən kiçik detallarına qədər böyük sevgi ilə müraciət etmiş, canlı obrazlar, təbii təsvirlər yaratmaq məqsədilə milli dəyərlərimizə qayğı ilə yanaşmış, maraqlı məlumat vermişdilər: *Bilmirəm bu əsnaf-üsnaf, saqqızsatan, çərçi babalar mənim yaxamdan nə istəyirlər*? [Sultanov: 2016, s.40].

Nəsr əsərlərində Azərbaycan türkcəsinə uyğun səslənən, zamanın ab-havasını özündə saxlayan, oxucusunu hadisələrin canlı iştirakçısına çevirməyi bacaran ləqəblər də maraq doğurur. Bədii ədəbiyyatda yer alan ləqəblər bədii təyin rolunu oynayaraq, qoşulduğu adın sahibinin müəyyən əlamətlərini özündə əks etdirir. Əməlinə, rəftarına, zahiri görkəminə və fərdi psixologiyasına uyğun seçilən ləqəblər obrazın hərtərəfli işlənməsi ilə səciyyələnmişdir: *qızıllı Qasım* [Səbri: 1978, s.72], *qurd Cəfər* [Sultanov: 2016, s.127], *lağlağı Sadıq, qəzetçi Xəlil* [Məmmədquluzadə: 2004, s.41], *yalançı Səbzəli, doşan Qasım, dəvə Heydər* [Məmmədquluzadə: 2004, s.43] və s.

Bədii sözə hərtərəfli bələd olan, dilimizin zənginliyindən yerli-yerində istifadə etməyi bacaran sənətkarlar qısa, yığcam süjet xəttindən ustalıqla yararlanmış, lazımsız epizod və əhvalatlara müraciət etməmişdilər. Yazıçılar zəngin obrazlar aləmi yaradaraq onların daxili aləmini, fərdi keyfiyyətlərini, mənəvi-əxlaqi dəyərlərini bədii sözün qüdrətinə söykənərək özünəməxsus şəkildə üzə çıxarmışlar: Bədii əsərlərdə nümunəvi və müsbət obrazların simasında, geyimində, rəftarında özünü göstərən mənəvi-əxlaqi keyfiyyətlərin, adət-ənənələrin olduğu kimi yazıçı tərəfindən canlandırılması olduqca təqdirəlayiq haldır: *Sənəm qaynanasının yanında nəinki üzünü açmırdı, hətta onunla danışmırdı da. Çünki adət belə idi, bir evə gəlin gələn bir neçə uşaq anası olmayınca nə qayınanası, nə də qayınatası ilə danışmazdı, o zaman bu adət möhkəm saxlanılırdı* [Sultanov: 2016, s.42].

Azərbaycan qadınlarının bəzək əşyaları əsasən estetik funksiya daşımış, qadın gözəlliyinə xidmət etmişdir. Nəsr əsərlərində ənənəvi qadın saç düzümü və bəzəklərinin adlarının yer alması da bu mənada təqdirəlayiq haldır: *Aynaya baxıb telini, gavını düzəltdi, sonra qoltuq cibindən sürmədanını çıxarıb, gözlərinə sürmə çəkdi* [Sultanov: 2016, s.43].

Eynəli bəyin əsərlərində dialekt və şivələrimizə dair çoxsaylı sözlər işlənmişdir. Yaşadığı Naxçıvan bölgəsində xalqın təbii danışıq dilini, etnoqrafiyasını bədii nəsrin dilinə hopdurmağa çalışan Eynəli bəyin nəsr əsərində işlənən dialekt sözlərindən biri də *gav* sözüdür ki, lüğətlərdə onun müxtəlif mənalarına rast gəlinir. Biz *gav/gab* dialekt sözünü məhz Eynəli bəyin ifadə etdiyi kimi, Cənub dialektində axtararaq, Naxçıvanın Qahab, Cəhri kəndlərində *birçək* mənasını, Təbriz, Ərdəbil, Xalxal dialektində isə həm birçək, həm də qadınlarda saçın üzə tökülən hissələrinin hamarlanaraq arxa tərəfə doğru səliqəyə salınması mənalarını ifadə etdiyini müəyyənləşdirmişik.

*Anan gözlərinə qurban, qızım, nə üçün mənə lələyib yalvarırsan, məgər mən özüm sənin əziyyətini görmürəm, gözüm, ha kor deyil?* [Sultanov: 2016, s.36]. Şahbuz, Şərur rayonlarında işlək olan *lələmək* [Quliyev, Əliyeva: 2017, s.189] feili dialekt söz kimi yalvarmaq, sızıldamaq mənasını ifadə etmişdir.

Göründüyü kimi, ədiblərin nəsr əsərlərində ədəbi dilimizin daha qədim dövrlərinə aid sözlər bu günə qədər danışıq dilində qorunub saxlanmışdır. Nəsr əsələrində danışıq dilində işlənən qiymətli, az tapılan şey, əmtəə mənasını verən *məta* sözü səs artımı hadisəsi ilə *mətah* şəklində bu gün də işləkliyini itirməmişdir: *Bizim vilayətin mətaını da dadıb* [Məmmədquluzadə: 2004, s.202]. Bədii əsərlər, eyni zamanda tarixi-etnoqrafik vəziyyətin elmi və praktik cəhətdən öyrənilməsində də əvəzsiz rol oynayır: *Hökumətə ancaq bac verməк borcları idi və ondan savayı bir vergi vermirdilər, ancaq gah da İrəvan və Naxçıvan xanlarının tərəfindən İran şahlarına* ***peşkəşlər*** *göndərilirdi* [Sultanov: 2016, s.57].

Yazıçılar daim obrazların yerli-yerində istifadə etdikləri ifadələr vasitəsilə tipin bədii xüsusiyyətlərini ön planda təqdim edərək onun danışığını və hərəkətlərini canlı şəkildə təqdim edə bilmişdir. Cəlil Məmmədquluzadənin nəsr əsərlərində qələmə alınan hadisələr rəngarəngliyi ilə seçilir, konkret epizodun ifadə etdiyi ümumi cəhətlər ictimai-psixoloji planda təsvir edilir. Nəsr əsərlərində aydın təsvir, dəqiq və emosional təsir gücünə malik sözlər seçmək bacarığı, obrazların daxili dünyasına sirayət etmək və onlar arasında baş verən konflikti hadisələrin ardıcıllığına görə seçərək təqdim etmək məharəti görkəmli yazıçının əsərlərinin bu gün də qiymətini itirməmişdir. Böyük yazıçı canlı müqayisələr yolu ilə obraz və hadisələri üzə çıxararaq, onlara qələminin gücü ilə həyatilik bəxş etmişdir. Ədibin nəsr əsərlərində yer alan andlar, qarğışlar, vulqar sözlər obrazların təsəvvürləri ilə əlaqəli olaraq seçilmiş, qəzəb və narazılıq ifadə edən sözlər münasib məqamlarda işlədilmişdir: - ***Başına dönüm,*** *xan, məni çövür balalarının başına, məni bağışla!* [Məmmədquluzadə: 2004, s.126]. Cəlil Məmmədquluzadənin nəsrində sual əvəzliyinin danışıq dilindəki şəklinə də rast gəlmək olur: *Fikirləşdim ki, əgər kağızı salım, durum qutunun yanında havədəyək durum* [Məmmədquluzadə: 2004, s.127]. Əvvəllər daha çox işlək olan *havədə* zaman zərfliyinin sualı kimi işlənmiş, danışıqda *nə vaxtadək?* mürəkkəb sual əvəzliyini əvəz etmişdir.

Səadət Vahabova "Cəlil Məmmədquluzadə nəsrinin poetikası" kitabında atalar sözləri və məsəllərin nəsr əsərlərində istifadə olunmasına elmi aydınlıq gətirən alimlərin fikirlərinə istinad edərək yazır: "Məna baxımından bu qruplaşmaya istinad edərək onu da qeyd etmək lazımdır ki, istər müstəqim, istərsə də məcazi mənada işlənən atalar sözləri və məsəllərə for-

ma baxımından bu təsnifatı vermək olar: a) atalar sözü və məsəllər eyniliklə qalıb tənqidi mətləbi ifadə edir; b) dəyişdirilmiş formada işlədilib əhvalata və hadisələrə tənqidi münasibət ifadə edir” [Vahabova: 2013, s.131]. Atalar sözləri və məsəllərində xalqın düşüncəsində, davranışında, başlıcası isə dilində əks olunan ifadələr yer almışdır ki, həmin sözlər onlun milli mənəvi görüşlərini də əks etdirir. Ordubadi də əsərlərində hikmət xəzinəmizin inciləri olan atalar sözləri və məsəllərə müraciət edərək şifahi xalq yaradıcılığına dərindən bələd olduğunu və sevgisini də göstərmişdir. Ədibin yaradıcılığında istifadə olunan atalar sözləri, məsəllər yerli-yerində həm surətlərin dilində, həm də müəllifin təhkiyə dilində sənətkarlıqla ifadə edilmişdir. Atalar sözlərində məna tutumu, lakonizm, obrazlılıq yaradan vasitələrin tərkibində antonim, sinonim və yaxın mənalı sözlər, frazeologizmlər də yer alır. Üslubi funksiyaları müxtəlif olan antonimlərin iştirak etdiyi atalar sözlərində əksiliklər, bədii təzadlar yer aldığı kimi, bədii təyinlərin sərrast şəkildə ifadəsi də özünü göstərir: *Hər nə əkərsən, onu da biçərsən* [Ordubadi: 1964, s.263]. *Çörək açanı, qılınc açmaz* [Ordubadi: 1964, s.597]. *Hər kosasaqqaldan bir tük çəkib topasaqqala versək, bunun saqqalı daha da top olar* [Ordubadi:1964, s.302]. *Atı atın yanına bağlasalar, ya halını götürər, ya xasiyyətini* [Ordubadi:1964, s.302], *El yolunda ağlayan axırda kor olar* [Ordubadi: 1964, s.597] və s.

Nəsr əsərlərində nağıl məzmununa da rast gəlinir ki, buna da yeri gəldikcə dövrün ruhuna, tələbinə uyğun şəkildə, müraciət olunmuşdur. Eynəli Sultanovun “Naxırçı qızı Gözəl” hekayəsi əvvəldən-axıra nağıl təhkiyəsi üzərində qurulmuşdur: *Naxırçı Murad çox kasıb idi, var-yox bir inəyi, bir də bir keçisi var idi, özü də qızı ilə daxmada yaşayırdı* [Sultanov: 2016, s.14]. Eynəli Sultanovun hekayələri haqqında Əflatun Məmmədov “Azərbaycan bədii nəsri” kitabında yazır: “E.Sultanovun hekayələri dəbdəbəli dildə deyil. Bu hekayələrdə orijinal tip və xarakter nəzərə çarpmır, onların əsasında əxlaqi-didaktik məsələlər dururdu. Bu hekayələr rus dilində olduğundan Azərbaycan ədəbi mühiti ilə çox az bağlı idi və hələlik azərbaycanlı oxucuların mütaliəsindən xeyli uzaq idi” [Məmmədov: 1983, s.18].

Ən tipik ideomatik, lakonik və hissi ifadələrin yer aldığı əsərlərdə sınamalar, alqışlar obrazın nitqinin fərdiliyini də üzə çıxarır: - *Allah sənə ömür versin, bəydadaş, səni bizə çox görməsin* [Sultanov: 2016, s. 90]. Ədiblər xalqın düşüncəsini, həyata baxışını, etik, etnoqrafik görüşlərini, adət-ənənəsini, mərasimlərini müşahidəçi sənətkar qələmi ilə təqdim etmişdirlər. Bədii əsərlərdə etnoqrafik nümunələrə rast gəlmək mümkündür. Ədəbi mühit nümayəndələrinin əsərlərində maddi mədəniyyətin mühüm elementlərindən olan ənənəvi milli yemək, ərzaq adları da yer almışdır: *Plovun qarasına xurma qoymağı mən çoxdan yadırğamışam* [Məmmədquluzadə: 2004, s.296]. *Bax, bu sədri düyüsündən istərsən bir pud, istərsən yarım pud apar* [Məmmədquluzadə: 2004, s.297]. Eynəli bəy hekayələrində qədim yemək növlərindən birinin də adını çəkmişdir: *Sağ olsun Bənövşə gəlinim, yaxşı ləzzətli ələyəz çəkməsi bişirmişdir* [Sultanov: 2016, s.148]. Eynəli Sulatov Naxçıvan mətbəxinə aid olan çörək növlərinin adlarını da hekayələrində istifadə etmişdir: Naxçıvan dialektində yer alan *bəysumat* (Babək, Naxçıvan) // *bəsmat* (Culfa, Kəngərli, Şahbuz) [Quliyev, Əliyeva: 2017, s.43] zavodda bişən çörəyə verilən addan Eynəli bəyin əsərlərinin dilində rast gəlinir: *soldat bəysumatı* [s.170]. *Özü gündəlik üçün bir darı cadısına möhtac ola-ola var-yox bir toyuğunu kəsib qonağa yedirtdi* [Sultanov: 2016, s.196].

Bədii dildə təsadüf edilən səs artımı, səslərin yerdəyişməsi, alınmaların məhəlli tələffüzü əsərin canlılığını, təbiiliyini təmin etməkdə yazıçıya kömək məqsədi daşıyır. Sidqinin də yaradıcılığında bu hallara rast gəlmək mümkünüdür: *Mətbəxtə gələn vaxtda evin*

*tağçalarını, dulabı, işqabı və sair yerləri axtarırdı ki, görsün yeməli şey tapa bilirmi* [Sidqi: 2004, s.86]. Göründüyü kimi, yazıçı cümlədə şkaf alınma sözünün əvvəlinə *i,* ortasına isə *q* səsi artırmış, bu da sözsüz ki, çox zaman asan tələffüz əldə etmək məqsədi daşımış, dolab məişət əşyasını Ordubad şivəsində *dulab* tələffüz şəklini işlətmişdir. Qeyd edək ki, Sidqinin özü də ordubadlı olduğuna görə təbiilik əldə etsin deyə, bölgənin insanlarının tələffüz etdikləri formada yazmağa üstünlük vermişdir. Eynəli bəyin nəsrində də sadalama intonasiyasının köməyi ilə ev sahibinin maddi durumu əks olunmaqla yanaşı, həmin dövrdə ev əşyalarının adlarını da müəyyənləşdirmək olur: *Ev içində iki köhnə palazı, bir iki yastığı, iki dəst yorğan döşəyi, bir taxta sandığı, bir taxta tabağı, iki sini, bir çölməyi, bir tunc çaydanı və bir şəxsi luleyini var idi* [Sultanov: 2016, s.14].

E.Sultanovun "İnsafsız kimdir", "Seyidlər", "Çalma", "Aşıq üz görən yerdə", "Kənd uşaqları", "Çadra altında" və s. hekayələrində həm öz dilində, həm də ayrı-ayrı tiplərin dilində çoxlu sayda azərbaycanca, farsca atalar sözləri və məsəllər də yer almaqdadır. Dilimizdə bu gün də işlənən atalar sözləri və məsəllər ədiblərin nəsr əsərlərində, qeyd etdiyimiz kimi, sıxlıqla istifadə olunmuşdur: *İlan vuran ala çatıdan qorxar. Neylərəm qızıl teşti, içinə qan qusam,* [Sultanov: 2016, s.25]. *Geyərəm bezi, gəzərəm düzü* [Sultanov: 2016, s.25], *Koxanı gör, kəndi çap* [Məmmədquluzadə: 2006, s.299]. E.Sultanovun hekayələrində çoxlu sayda atalar sözləri və məsəllərdən istifadə özünü göstərdiyi kimi, onun dilində də rəngarəng "gözünün quyruğu", "kölgəli kiprik", "top kimi qara saç", "kamanabənzər qaş", "polad kimi bədənli", "yanağın rənginə çırtmıq vursaydın qanı tökülər", "günəşin üzünə gülürdü", "əkin göyləri yerə salınmış müxtəlif fərşlərə bənzəyirlər" bədii ifadə və təsvir vasitələrindən istifadə özünü göstərir.

Himalay Ənvəroğlu hekayələrin tədricən nəsr yolunda mayaka çevrilməsini qiymətləndirərək yazır: "Təkcə təsvir etdiyi tarixi-sosial problemlərə görə yox, həm də bədii təfəkkürdə müəyyən inkişaf stimulu əmələ gətirdiyinə və nəsrin daha iri formalarına keçmək üçün böyük əhəmiyyət kəsb etmişdir" [Ənvəroğlu: 2008, s.131]. Məmməd Səid Ordubadi maddi mədəniyyətin mühüm sahələrindən olan xalq geyim və bəzəklərinin adlarını detallı şəkildə nəsr əsərlərində təsvir etmişdir: XX əsrin əvvəllərində xalqa məxsus ənənvi milli geyim və bəzək əşyalarını dəqiqliklə təsvirini vermişdir: *Əynində atlas nimtənə, boynunda qızıl və mərcanlar hər tərəfdən asılmış, qulaqlarından mirvarid ilə düzülmüş guşvarələr, əynində sayir İrana məxsus libaslar geyib otaqda gəzirdi* [Ordubadi: 1964, s.382].

Bədii əsərin dilində elmi cümlələr, elmi fikirlər də yer alır: *Həqiqətdə bir neçə il işi yaxşı apardı, əkinçilikdən yaxşı mədaxil götürdü, fəqət birdən-birə nə oldusa, işi başladı axsamağa və o qədər aşağı düşdü ki, Lətif özü də bu işdən nifrət edib əkinçiliyi buraxdı. Əkinçilikdən xeyir aparmayıb Lətif öz fikrində bir yağ zavodunun planını çəkdi və Tiflisə gəlib burada Nikolay yaranallarından bir qocamanını tapdı və ona yanaşıb çox dəlil və isbatlar ilə ondan zavod üçün böyük sərmayə ələ gətirdi. Zavodu qurdu, özü də onun müdiri oldu, çox dövlətləndi və başladı çox israf xərclər eləməyə* [Sultanov: 2016, s.91]. Yazıçıların bədii əsərlərdə elmi üsluba müraciət etmələri dövrün dil zənginliyinin, genişliyini göstərməklə yanaşı, dövrün tarixi, iqtisadi, siyasi, coğrafi mənzərəsini də əks etdirmək baxımından əhəmiyyətlidir: *Bakı ilə Tiflisin arasında dəmir yolunun Yevlax stansiyasından şosse yolu gedir Bərdəyə, sonra Ağdama, buradan baş yuxarı gedir Şuşa qalasına. Ağdamdan sol tərəfə şosse yolu gedir çıxır Qarabulaq şəhərinə, buradan Cəbrayıla, cəbrayıldan yol gedib çıxır Araz qırağına. Məşhur Xudafərin körpüsü buradadır* [Məmmədquluzadə: 2006, s.232].

Ordubadinin nəsrində alliterasiya və assonansdan istifadə halları da diqqğti cəlb edir. *Bir həftədən sonra doktor yığışıb Təbrizdən getdi, gedən vaxtda övrəti, övladı və özü əyinlərində səfər libası olaraq Qasımxan qəbristanına gəlib Rzaqulu xanın və övladının qəbirləri üzərində ağladıqdan sonra qayət suzişli surətdə aşağıdakı nitqi irad edib səfərinə davam etmişdir"* [Ordubadi: 1964, s.428]. Nümunədə *ö, ə, a,* səslərinin yaratdığı assonans və *q, s, d* səslərinin alliterasiyası nəzəri cəlb edir Ordubadi əvvəli dəbdəbəli, təmtəraqlı olan imarətin son halını qəhrəmanın düşdüyü ağır vəziyyətə uyğunlaşdıraraq müqayisələr etmişdir.

Yazıçılar nəsr dilində müxtəlif üslublardan istifadə etmiş, bədii əsərin canlılığını, təbiiliyini təmin etməklə yanaşı, dövrün dil mənzərəsini də təbii şəkildə üzə çıxartmışlar: *İndi bizim təklifimiz nədir? Köçün ağsaqqalları da burada yoxdur ki, məsləhətləşək, adamlarımızın rəyini öyrənək* [Səbri: 1978, s.41]. Ədəbi əsərlərin dilində rəsmi-işgüzar üsluba aid sözlər də yer almışdır: *Şəriət və qanuna müvafiq vəsiyyətnamə çıxarırsa, qəbulumuzdur, biz dövləti nə qədər dost tutarsaq, insaniyyəti də o qədər dost tuturuq* [Ordubadi: 1964, s.420].

Ordubadinin yaradıcılığında maraqlı bədii təzadlarlara rast gəlmək olar: *Sən bu **qaranlıq** İranda bir **işıqlıq** istəyirdin, lakin ey ziyalı rəfiqim, özün bir qaranlıq hüfrə basdırıldın.* [Ordubadi: 1964, s.425]. 2-ci cümlədə yer alan *hüfrə* sözü *çuxur* mənasında işlənmişdir. Ordubadi *ruznamə* və *qəzet* (s.339), *çilçıraq* və *avizə* [Ordubadi: 1964, s.424], *əlbisə* və *qiyafət* [Ordubadi: 1964, s.353], eləcə də ədəbiyyatşünaslıq terminlərindən olan *faciələr, tragediyalar* [Ordubadi: 1964, s.373] sözlərini bir cümlə daxilində yanaşı işlətmişdir. Ordubadi naxoş sözünü rəngarənglik yaratmaq üçün *mərəz* sözü ilə paralel işlətmiş, xəstəliyin göstəricisi olan *istilik, qızdırma* sinonimlərinə *isitmə* sözünü sözünü də əlavə etmişdir. Ordubadi "Bədbəxt milyonçu, yaxud Rzaqulu xan Firəngi-məab" əsərində təbiətin təlatümünü, cəmiyyət həyatındakı bəzi zorakarlıqları Münəvvərin ölümü səhnəsində canlandıraraq hüzünlü bir dildə əks etdirmişdir: *Ördəklərin çırpınmasından dalğa vuran sular Münəvvərin bədəninə hərəkət verirdi. Qara buludların arxasından çıxan ay dünyada qara gündən başqa gün görmüyən camalını işıqlandırırdı. Qolları suyun üzünə açılmış, gözləri də baxırdı, bütün arzu və əməllərinin başdan-başa sönmüş və yarımcıq qalmış olduğu anladırdı* [Ordubadi: 1964, s.423].

Bədii əsərin dilinin lüğət tərkibinin rəngarəngliyi onu daha oxunaqlı və yaddaqalan edir. Bu mənada Ordubadinin bədii dilində yer alan müxtəlif üslublara aid sözlər dövrün dil mənzərəsini müşahidə etməyə kömək edir. Ordubadinin mükəmməl dini dünyagörüşü, dini inancı, dini sözlərin mənasını bilməsi bu sözlərin nəsr əsərlərində yer almasına səbəb olmuşdur: *Rzaqulu xan bu sözlərdən sonra **dua** oxurdu, **salavat** söyləyirdi* [Ordubadi: 1964, s.400], *Quranda **Yusif surəsini** oxumayan Böyükxanım gözlərini dolandırıb oğlanlarına baxıb daha da dilgir olurdu* [Ordubadi: 1964, s.354], *möhr* [Ordubadi: 1964, s.420], *tabut, mürdəşir*, *kəfən* [Ordubadi: 1964, s.423], *salavat* [Ordubadi: 1964, s.422] və s.

Ordubadinin nəsrində rus dili sözləri və bu dil vasitəsi ilə dilimizə keçən sözlər çoxluq təşkil edir: *madmazel* [s.412], *paket* [s.379], *revolver* [s.421], *kravat* [s.381], *aquşka* [s.397], sud pristavı [s.461], *qaraul postları* [s.358], *pelerina palto* [s.354] və s. Göründüyü kimi, Ordubadi, yeri gəldikcə, dilimizdə istifadə olunan sözlərin rus dilində işləklik qazanmış şəklindən də istifadə etmişdir: *Gecə yaxınlaşmış, Rzaqulu xanın otağında zəif bir işıqlı yataq lampası* (*noçnik*) *yanır.* Yazıçı yaxınmənalı sözlərdən olan *çıraq, lampa* sadə isimlərinin

məna çalarlarından məharətlə istifadə etmişdir: *Çırağın şöləsi yataqdakı aynalara düşüb Rzaqulu xanı narahat etməsin deyə xodu qayət alınmışdır* [Ordubadi: 1964, s.373]. Yazıçının dilində danışıq dilində bu gün də işlənən alınma *xod* sözünə də rast gəlirik. Ordubadinin dilində rast gəlinən varvarizmlər bəzən dilimizə məxsus olan sözlərə qarışaraq işlənmişdir: *Olqa xanım ən əvvəl qaşığı əlinə alıb qabağındakı nimçəni ortada qoyulan blyudanın yanına aparıb qaşıq ilə töküb yanına çəkirdi* [Ordubadi: 1964, s.355].

Müasir dilimizdə işlənən *qaçaqmalçı* sözünü Eynəli bəy Sultanov italyan dilindən alınan, bu gün də işlək olan *kontrabandaçı* sözü ilə əvəz etmişdiir: *Bizə məlum olan ancaq budur ki, Hidayət xan ailəsi ilə bərabər kondrabatçı Məşədi Qənbərin vasitəsilə Arazdan İrana qaçaq keçmək istəyirmiş* [Sultanov: 2016, s.125].

Bədii əsərlərdə müxtəlif dövrlərə aid pul vahidlərinin adları çəkilir. Bədii nümunələrin dilində yer alan pul vahidlərinin adları mövzunun məzmununa, tarixinə uyğun olaraq seçilib işlədilir. Dövlətçilik tarixinin qədimliyini təsdiqləyən, hər bir dövlətin atributunu özündə əks etdirən, müxtəlif dövlərə aid olan sikkələrdən istifadə naxçıvanlı ədiblərin yaradıcılığında da yer almışdır. Ədəbi mühit nümayəndələrinin əsərlərində müxtəlif sikkələrin, o cümlədən, şahı, abbası, dinar kimi pul vahidlərinin adı keçmişdir. Ordubadi də əsərlərində *şahı* [s.420], *tümən* [s.369] kimi pul vahidlərindən istifadə etmişdir. Ədib Şah Abbas dövründə kəsilən iri gümüş pul adlarından bədii nümunədə dəyəri ilə birlikdə *bir qran pul* [Ordubadi: 1964, s.347] şəklində istifadə etmişdir: ... *ayaq üstə olan xanımların başına iki qranlıq gümüş pullar şabaş edirdilər* [s.383].

Ədəbi mühit nümayəndələrinin nəsrində rəngarəng alınmalar müşahidə olunur. Bu cür alınmalardan biri də *qiylü-qal* sözüdür. Naxçıvanda yaşlı nəsil nümayəndələrinin dilində hələ də işlənən bu söz ərəb dilindən alınan *qiylü-qal* sözündən olub, *səs-küy, dedi-qodu, qeybət, giley* mənasını ifadə etmişdir: *İkincisi, yüz bu tövr dövlət olsa mən qiylü-qala razı olmaram, ancaq Qulam xan əvvəldən bizə zülm elədi, təhsildən qoydu* [Ordubadi: 1964, s.420]. *Səsdən və qiylü-qaldan qulaq tutulurdu* [Məmmədquluzadə: 2004, s.175].

Dil və üslub cəhətdən xalq dilinə yaxın olan bu hekayələrdə obrazların fərdi xüsusiyyətlərini əks etdirən dialoqlardan geniş istifadə edilmişdir. Cəlil Məmmədquluzadənin nəsr yaradıcılığı bu baxımdan təqdirəlayiqdir. Uzun-uzadı danışığa deyil, fikri əks etdirə biləcək dialoqlar ədibin nəsrinin canlılığını qoruyub saxlamışdır:

- *Məhəmmədhəsən əmi, bu vaxt niyə burda oturmusan?*
- *Dadaş, şəhərdə adam var, gözətdiyirəm. İndilərdə gərək gələ.*

Ədiblər kiçik hekayələrin böyük imkanlarını üzə çıxararaq, dövrün bədii gerçəkliyini olduğu kimi təqdim etməkdə mühüm işlər görmüşlər. Ədiblərimiz qələmə aldıqları əsərlərdə hadisələrin çoxunun müşahidəçisi olmuş, bir çox obrazların prototiplərinin həyatı ilə yaxından tanış olmuş, bəzi hadisələrin isə haqqında oxumuş, öyrənmişlər. İstifadə etdikləri tarixi hadisələrə də bədiilik donu geydiyməyi bacarmış, onları bədii ədəbiyyatın mövzusuna çevirməyə ustalıqla nail olmuşdurlar. Ədiblər milli nəsrimizin, ədəbiyyatımızın ideya və sənətkarlıq baxımından inkişafında tədqirəlayiq rol oynayaraq əvəzsiz bədii əsərlər yaratmışlar.

## ƏDƏBİYYAT


1. Dövlətməmməd A. (2012). Seçilmiş əsərləri, Bakı, BXQR, 264 s.
2. Ənvəroğlu H. (2008). Azərbaycan romanının inkişaf problemləri, Bakı, "Nurlan", 336 s.
3. Hüseynova H. (2017). Bədii əsərlərdə onomastik vahidlərin rolu, Bakı, 192 s.
4. Kazımov Q. (2010). Azərbaycan dilində tabeli mürəkkəb cümlənin inkişaf tarixi, Bakı, "Nurlan", 176 s.
5. Quliyev Ə., Əliyeva N. (2017). Naxçıvan dialekt və şivələrinin lüğəti, Naxçıvan, "Əcəmi" nəşriyyatı, 296 s.
6. Məmmədquluzadə C. (2004). Əsərləri, Dörd clddə. I cild, Bakı, "Öndər", 664s.
7. Məmmədov Ə. (1983). Azərbaycan bədii nəsri, Bakı, "Elm", 164 s.
8. Ordubadi M.S. (1964). Əsərləri, I cild. Bakı, "Azərnəşr", 446 s.
9. Orucov Ə., Abdullayev B., Rəhimzadə N. (2006). Azərbaycan dilinin izahlı lüğəti, Dörd clddə. II cild, Bakı, "Şərq-Qərb", 792 s.
10. Rəhimov Y. (2009). K.A. Nikitininin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" məqaləsi Naxçıvan bölgəsi tarixinin mənbəyi kimi, // Tarix və onun problemləri, № 1-2, səh.420-425
11. Sarıbala M. (2019). Cəlilabad ərazisində işlənən bəzi dialekt sözlər, // Elmi əsərlər, cild 86, № 5, Bakı, s.151-155
12. Səbri Ə. (1978). Povest və hekayələr, Bakı, "Gənclik", 119 s.
13. Sidqi M. T. (2004). Əsərləri, "Çaşıoğlu", 279 s.
14. Sultanov E. (2016). Hekayələr, Bakı, "Elm və təhsil", 288 s.
15. Vahabova S. (2013). Cəlil Məmmədquluzadə nəsrinin poetikası, Bakı, "Elm və təhsil", 164 s.
16. Zahidova H. (2011). Azərbaycan etnoqrafiyası Cəfər Cabbarlı yaradıcılığında, Bakı, "Elm" 304 s.


**Mehriban ASADULLASOY (GULIYEVA)**

**ARTISTIC PECULIARITIES OF PROSAIC LANGUAGE OF NAKHCHIVAN WRITERS IN THE END OF XIX-BEGINNING OF XX CENTURIES**

### SUMMARY

Artistic style differs amongst the functional styles by its arty-aesthetic qualities and individual features of a writer. Representatives of prosaic community of Nakhchivan brought up topics of the social and political landscape of the day, as the social-historical and political environment had influenced significantly upon the literature. The works of the writers carving out the expressivity options of Azerbaijani language have been enriched by words and phrases taken from popular language, as well they treated the artistic language with sensitivity, preserved national tincture, simplicity and authenticity of the mother language.

Representatives of literature community preferring dialogues in their pieces have formed the thinking process of each hero through the spoken language, highlighting popular phrases. Simplicity, naturality of the style, using popular language abound in sweetness, various old-maidish phrases, colorful expressions, rhetorical questions, artistic repetitions have vividly emphasized uniqueness and peculiarity of these art pieces.

**Key words:** *Nakhcivan, artistic language, prosaic language, language and style, spoken language.*

**Мехрибан АСАДУЛЛАСОЙ (ГУЛИЕВА)**

**ХУДОЖЕСТВЕННОЕ СВОЕОБРАЗИЕ ПРОЗАИЧЕСКОГО ЯЗЫКА ПИСАТЕЛЕЙ НАХИЧЕВАНИ КОНЦА XIX-НАЧАЛА XX ВЕКОВ**

## РЕЗЮМЕ

Художественный стиль отличается на фоне функциональных стилей наличием художественно-эстетических качеств, а также индивидуальными особенностями писателя. Вопросы, затрагиваемые в произведениях представителей литературной среды Нахичевани, соответствовали общественно-политической картине своего времени: в данном контексте общественно-историческая и политическая обстановка имела немаловажное влияние на литературу. В произведениях авторов, стремящихся к экспозиции множества вариантов экспрессивности азербайджанского языка, содержатся примеры оборотов и выражений, взятых из народного языка, чувствуется чуткое отношение к художественному языку, сохранены национальный колорит, простота и аутентичность родного языка.

Работы представителей литературной среды Нахичевани конца XIX начала XX веков представляют вниманию читателя различные примеры классической прозы. Простота, естественность языка данных произведений, теплота и нежность народного языка, манерные фразы, колоритные выражения, риторические вопросы, художественные повторы ярким образом отражают неповторимость и своеобразие работ прозаиков данной эпохи.

**Ключевые слова:** *Нахичеван, художественный язык, язык прозы, язык и стиль, разговорный язык.*